

# Azərbaycan tələblərinə səbirlə, addım-addım nail olur

## Yaxın zamanlarda Laçının, Zabuxun, Susun əzəli sakinləri öz doğma yerlərinə qayıdacaqlar

*Azərbaycanın hərbi-siyasi Qələbəsinin və Ermənistanın kapitulyasiyasının təsdiqi olan 10 noyabr 2020-ci il tarixli Bəyanatda əksini tapan öhdəliklər yerinə yetirilməlidir. Belə ki, Azərbaycan hər bir öhdəliyi yerinə yetirmək üçün səylər göstərsə də, Ermənistan onların icrasından yayınır, regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmin olunmasında əsas amil olan sülh müqaviləsinin imzalanması prosesinin uzanmasına çalışır.*

İki ilə yaxın müddətdə 10 noyabr bəyanatına əsasən Ermənistan üzərinə düşən öhdəlikləri icra etməyib. Bəyanatın müddəalarına zidd olaraq Ermənistan Azərbaycanın Qarabağ bölgəsində yerləşmiş qoşunlarını ərazidən çıxarmayıb. Üçtərəfli Bəyanatın 6-cı bəndinə görə Laçın dəhlizi üzrə yeni yolun inşası razılaşdırılmış qaydada artıq bir neçə aydır ki, gedir və Ermənistan tərəfi bu yol ilə bağlı kifayət qədər məlumatlıdır. Təəssüf ki, Ermənistan tərəfi üçtərəfli Bəyanatın digər müddəaları kimi bu öhdəliyin də həyata keçirilməsini müxtəlif bəhanələrlə ləngitmək məqsədi güdür. Bu bir daha Ermənistanın qeyri-konstruktiv və üçtərəfli bəyanatların və digər razılaşmaların icrasına münasibətdə pozucu fəaliyyətinin bariz nümunəsidir. Bölgədə sülh və sabitliyin təmin olunması, habelə münaqişəsonrası normallaşma üçün üçtərəfli bəyanatların tam icrası vacibdir. Azərbaycan öz tərəfindən üzərinə götürdüyü öhdəlikləri tam yerinə yetirir və Ermənistan tərəfinin də bu öhdəliklərə əməl etməsini qətiyyətlə tələb edir.

"Qarabağda yaşayan ermənilər düzgün addım atmalıdırlar. Başa düşməlidirlər ki, onların gələcəyi ancaq Azərbaycan cəmiyyətinə inteqrasiyadan keçir. Başqa cür mümkün deyil. Yəni, biz real həyatda yaşayırıq. Həm iqtisadi, həm coğrafi, həm nəqliyyat nöqteyi-nəzərindən Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, tarix nöqteyinəzərdən, beynəlxalq hüquq nöqteyinəzərindən tərkib hissəsidir". Bu sözləri Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində söyləyib. Dövlət başçısının sözlərinə görə, əgər Qarabağda kimsə yenə də hansısa populizm naminə, yaxud da kimdənsə qorxduğu üçün hansısa statusdan, müstəqillikdən söhbət aparırsa, o, erməni xalqının birinci düşmənidir: "Çünki Qarabağda yaşayan ermənilərin nə statusu olacaq, nə müstəqilliyi olacaq, nə də ki, hansısa xüsusi imtiyazı. Azərbaycan vətəndaşları necə, onlar da elə. Azərbaycanda yaşayan xalqların hüquqları necə qorunursa, onların da elə. Yol ancaq budur".

Düşməni diz çökdürən, torpaqlarını işğalçılardan təmizləyən, BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamələrinin həyata keçirilməsini özü təmin edən, regionu və dünyanı erməni faşizmindən xilas edən Azərbaycan qarşısında artıq yeni mühüm vəzifələr durur. Bu, azad edilmiş ərazilərin etibarlı müdafiəsinin təşkili, o yerlərdə abadlıq-quruculuq işlərinin həyata keçirilməsi, müasir infrastrukturun yaradılması, keçmiş məcburi köçkünlərin Böyük Qayıdışı üçün digər müvafiq işlərin görülməsidir. Postmüharibə dövründə bu istiqamətdə Azərbaycan dövləti tərəfindən artıq genişmiqyaslı işlər həyata keçirilir. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa - Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsinə başlanılıb. Dövlət başçısı bildirib ki, Laçına, Zabuxa, Susa da qayıtmalıyıq. Yaxın zamanlarda oranın sakinləri də öz doğma yerlərinə qayıdacaqlar. Bununla da, Azərbaycan üzərinə götürdüyü bütün öhdəliklərə sadiq qaldığını göstərir. Əzəli torpaqlarımızda, Laçın şəhərində, Zabux və Sus kəndlərində qanunsuz məskunlaşan ermənilər oradan öz xoşları ilə çıxmalıdırlar. Onların hara getmələri bizi qətiyyən maraqlandırmır. Ölkə başçısı bununla bağlı ermənilərə ciddi xəbərdarlıq edir ki, bizim səbrimizi sınağa çəkməsinlər, sonu yaxşı olmayacaq. Ermənistan isə yenə də fitnəkarlıqla məşğuldur. Bir də ki, onlar başa düşməlidir, vaxt uzatmaq onlara heç nə verməyəcək.

Əgər, onlar fikirləşirlər ki, bir ildən, yaxud ilyarımdan sonra nəsə dəyişəcək bunların xeyrinə, səhv edirlər. Nəsə dəyişə bilər, amma Azərbaycanın xeyrinə. Çünki dünyada, bölgədə gedən geosiyasi vəziyyət göz qabağındadır. Reallıq budur ki, Azərbaycanın həm hərbi, həm iqtisadi, həm siyasi gücü artır. Ermənistan faktiki olaraq, əgər belə demək mümkündürsə, təklənib. Ona görə ki, haqsızdırlar, nahaq iş görürlər, hələ də Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyiblər. Dövlət başçısı deyib: "Halbuki, mən onlara birbaşa demişəm, özü də rəsmi qaydada. Əl çəkin ərazi iddialarından. Əl çəkməsəniz, o zaman biz də ərazi iddiası qaldıra bilərik Ermənistana qarşı". Prezident İlham Əliyev, həmçinin qeyd edib ki, Ermənistan hakimiyyəti Qarabağda yaşayan ermənilərə öz təsir imkanlarını itirir. Bu, həqiqətdir. Əksinə, Azərbaycan hakimiyyəti öz təsir imkanlarını artırır. Bu, reallıqdır.

Avqustun 3-də Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin törətdikləri terror-təxribat əməllərinə cavab olaraq Azərbaycan Ordusunun keçirdiyi "Qisas" əməliyyatı bir daha Ermənistana və ona havadarlıq edənlərə "dəmir yumruğ"un yerində olduğunu nümayiş etdirdi. Əməliyyat nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər bölmələrimizin nəzarətinə götürüldü. Ordumuzun həyata keçirdiyi bu əməliyyat öz suveren ərazilərində antiterror əməliyyatıdır, regionda sülhün və təhlükəsizliyin təmin olunmasına xidmət edir. "Qisas" əməliyyatı Ermənistana bir daha göstərdi ki, bizi heç kim və heç nə dayandıra bilməz. Nə kiminsə bəyanatı, nə kiminsə açıqlaması, nə də hansısa telefon zəngi. Heç nə və heç kim. Bunu Azərbaycan xalqı yaxşı bilir. İkinci Qarabağ müharibəsi bunu göstərmişdir. Əminəm ki, qarşı tərəf də bunu bilir. Sadəcə olaraq, hərdən bir bunu unudur. Ona görə bu faciəvi hadisələr baş verir". Bu fikirləri Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində ifadə edib. Müharibədə Zəfər çaldığımızı, ərazi bütövlüyümüzü bərpa etdiyimizi xatırladan dövlət başçısı bildirib ki, "nə üçün bizim övladlarımız müharibədən sonra ölməlidir? Nə üçün ermənilər tərəfindən öldürülməlidir? Biz buna imkan verə bilmərik. Bir daha demək istəyirəm, əgər yenə də buna oxşar təxribat təkrarlanarsa, cavab daha sərt olacaq, daha da peşman olacaqlar, daha gur səslə imdad diləyəcəklər. Amma yenə də deyirəm, bizim niyyətimiz yeni müharibə başlamaq deyil. Kifayətdir. Biz istədiyimizə nail olmuşuq". Azərbaycan Prezidenti vurğulayıb ki, bizim istəyimiz erməni silahlı birləşmələrinin Qarabağı birdəfəlik tərk etmələridir. Bu, Ermənistanın öhdəliyidir və 2020-ci il noyabrın 10-da Ermənistan tərəfindən imzalanmış kapitulyasiya aktında təsbit edilib.

**Mustafa KAMAL,**
**"Respublika".**